# Cinayət işinin başlanması barədə qərarlara hüquqi müdaxilə imkanları

Hər bir prosessual sənəd, o cümlədən prosessual qərar cinayət prosesinin müəyyən bir mərhələsində tərtib edilir. Bu baxımdan tərtib edilən prosessual sənəd tərtib edildiyi cinayət prosesinin mərhələsinin mahiyyət və məzmununa uyğun gəlib onu ifadə etməlidir.

Bu baxımdan cinayət işinin başlanması mərhələsi xüsusi önəm kəsb edir. Cinayət işinin başlanması bir neçə semantik məna daşıyan anlayışdır. Bu, ilk növbədə, cinayət-prosessual institutdur, yəni cinayət işinin başlanması məsələsinin həlli qaydasını müəyyən edən prosessual qaydalar toplusudur. Cinayət işinin başlanması, həm də cinayətin ibtidai istintaqının başladığının elanıdır. Cinayət işinin başlanması, həm də ki, cinayət prosesinin ilkin mərhələsi, cinayət hadisəsinin olub-olmamasından asılı olan bir mərhələdir.

Cinayət işinin başlanması cinayət prosesinin zəruri, məcburi hissəsidir. Heç bir cinayət işi prosesin bu mərhələsindən yan keçə bilməz. Cinayət işinin başlanması fəaliyyəti səlahiyyətli şəxslər tərəfindən həyata keçirilir, müəyyən şərtlər və konkret prosessual formalarda tətbiq edilir. Bu mərhələ işin sonrakı hərəkətini müəyyən edən konkret qərarla başa çatır. Bu mərhələnin məqsədi cinayət işi üzrə qanuni və əsaslandırılmış icraat üçün zəruri olan əsasların müəyyən edilməsidir.

Bu mərhələdə hüquq-mühafizə orqanlarının fəaliyyətinin lazımi qaydada həyata keçirilməsi cinayət prosesinin ümumi vəzifələrinin həllinə zəmin yaradır: cinayətlərin tezliklə tam açılması, təqsirkarların ifşası və qanunun düzgün tətbiqinin təmin edilməsi ki, cinayət törədən hər kəs ədalətli cəzaya məruz qalır və təqsirsiz şəxs məsuliyyətə cəlb edilmir.

Cinayət-prosessual qanunvericilik törədilmiş, törədilməkdə olan və ya hazırlanan cinayətlər haqqında məlumatlar (səbəblər) olduqda cinayət işinin başlanmasının 2 halını müəyyən edir:

a) cinayət işinin dərhal başlanması;
b) cinayət işinin başlanması üçün əsasların kifayət qədər olmasına dair aparılan ilkin yoxlamanın nəticələrinə uyğun olaraq cinayət işinin başlanması.

Hər iki halda törədilmiş, törədilməkdə olan və ya hazırlanan cinayətlərə dair cinayət işinin başlanması üçün CPM-nin 204-206-cı və ya 208-ci maddələrində nəzərdə tutulmuş məlumatlar (səbəblər) olmalıdır. Belə məlumatlar olduqda cinayət işinin başlanması üçün iki şərt ödənilməlidir:

1) cinayət işinin başlanması üçün kifayət qədər əsaslar olmalıdır;
2) cinayət təqibini istisna edən halların olmadığını güman etməyə əsaslar olmalıdır.

Cinayət işinin başlanması üçün əsas qismində cinayətin əlamətlərinin mövcud olduğunu təsdiq edən kifayət qədər dəlillərin olması çıxış edir.

Cinayət haqqında məlumatda (səbəbdə) cinayətin əlamətlərinin mövcud olduğunu təsdiq edən kifayət qədər əsas olmadıqda, belə əsasların mövcud olub-olmamasını müəyyən etmək üçün CPM-nin 207-ci maddəsində göstərilmiş qaydada və müddətdə ilkin yoxlama hərəkətləri həyata keçirilir. Bu halda cinayət işi dərhal deyil, ilkin yoxlama hərəkətləri həyata keçirildikdən sonra cinayətin törədilməsini təsdiq edən əlamətlər aşkar edildikdə başlanılır.

CPM-in 46.3-cü maddəsinə əsasən cinayətin əlamətlərini əks etdirən əməlin törədilməsini və cinayət təqibini istisna edən halların olmadığını güman etməyə əsaslar mövcuddursa, öz səlahiyyətləri daxilində fəaliyyət göstərən təhqiqatçı, müstəntiq və ya prokuror dərhal cinayət işi başlamalıdır.

Ədalət mühakiməsi əleyhinə olan hər hansı cinayətin əlamətləri məhkəmə baxışı zamanı müəyyən olunduqda da (cinayət təqibini istisna edən halların mövcudluğu istisna edilməklə) məhkəmə iclasında sədrlik edən prokurorun diqqətini buna cəlb etməli və prokuror bununla bağlı dərhal cinayət işi başlamalıdır (CPM-nin 46.4-cü maddəsi).

CPM-in 209.2-ci maddəsində aşkar edilmiş fakt üzrə cinayət işinin dərhal başlanması haqqında müddəa nəzərdə tutulmuşdur. Aşkar edilmiş fakt üzrə cinayət işinin başlanmasının xarakterik xüsusiyyəti ondan ibarətdir ki, burada prosessual qeyri-məcburiyyət tədbirlərinin həyata keçirilməsi, əlavə yoxlamalar aparılması, izahatlar alınması tələb olunmur və CPM-in 209.2-ci maddəsində nəzərdə tutulmuş hallardan hər hansı birinin aşkar edilməsi nəticəsində cinayət işinin başlanması haqqında dərhal qərar qəbul edilir. Bu halda hərtərəfli, tam, obyektiv ibtidai araşdırma CPM-in 46.5-ci maddəsində nəzərdə tutulmuş cinayət təqibinin həyata keçirilməsinə mane olan hallar müəyyən olunanadək həyata keçirilir.

CPM-in 210.1-ci maddəsinə uyğun olaraq cinayət işinin başlanması haqqında qərar təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən qəbul edilə bilər. Müstəntiqin bütün səlahiyyətlərindən istifadə edən istintaq şö-

bəsinin (bölməsinin, idarəsinin) rəisi (rəis olmadıqda onun müavini) və təhqiqatçının səlahiyyətlərindən istifadə edən təhqiqat orqanının ixtisaslaşmış təhqiqat qurumunun rəhbəri də cinayət işinin başlanması haqqında səlahiyyətlərə malikdir.

Məcəllənin 210.4-cü maddəsinə əsasən cinayət işi başlanması haqqında qərarın surəti qərar çıxarıldıqdan sonra 24 saat ərzində cinayət haqqında məlumat vermiş hüquqi, fiziki, vəzifəli şəxsə, habelə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilməlidir.

Təcrübədə aparılmış təhlillər göstərir ki, bəzi hallarda tam, hərtərəfli, obyektiv araşdırma aparılmadan, cinayət hadisəsinin baş vermə faktı və halları sübutlara əsasən müəyyən edilmədən, o cümlədən kifayət qədər əsas və səbəb olmadan təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorlar tərəfindən cinayət işinin başlanması haqqında qərarlar qəbul edilir.

Bu zaman qəbul edilmiş bu qəbildən olan əsassız qərarlara dair hüquqi mövqe bildirmək və ya qanuni müdaxilə imkanlarından istifadə etmək zərurəti yaranır. Həmin zərurətin doğurduğu hüquqi hesab edilən addımlar isə heç də həmişə birmənalı qarşılanmır.

Bir sıra hüquqşünaslar hesab edirlər ki, prokuror cinayət işinin başlanması haqqında qərarı əsassız hesab etdikdə, cinayət işinin başlanması üçün əsas olmuş materialları aldığı andan 24 saat ərzində cinayət işinin başlanması haqqında qərarı ləğv etmək hüququna malikdir. Bir qrup nəzəriyyəçilər isə cinayət işinin başlanması barədə qərarın istisna olaraq ləğv deyil, xitam edilə biləcəyini göstərirlər.

Cinayət işinin başlanması barədə qərarın ləğvi haqqında qərarın qəbul edilməsinin mümkünlüyünün tərəfdarları istinad nöqtəsi kimi CPM-in 84.5.8 və 122-ci maddələrini rəhbər tuturlar. Bu mövqedən çıxış edən hüquqşünasların fikrincə, kifayət qədər əsas və səbəb olmadan təhqiqatçı, müstəntiq tərəfindən başlanmış cinayət işləri üzrə müəyyən istintaq hərəkətlərinin aparılmasına baxmayaraq ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən CPM-in 84.5.8-ci maddəsinə əsaslanılaraq (ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun, təhqiqatçının və ya müstəntiqin qanunsuz və əsassız qərarlarını ləğv etmək səlahiyyəti) cinayət işinin başlanması barədə qərarlar ləğv edilə bilər.

Bundan əlavə, mövqenin əsaslandırılması davam etdirilərək bildirilir ki, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror cinayət işinin ibtidai araşdırılmasına nəzarəti həyata keçirərkən müstəntiq və ya təhqiqatçı tərəfindən qəbul edilən hər bir qərarın qanuniliyini yoxlayır və onların qanunsuz və əsassız olduğunu aşkar etdikdə belə qərarı ləğv edir. Belə yoxlamaları prokuror həm öz təşəbbüsü ilə, həm də müstəntiq və ya təhqiqatçının qərar və hərətkərlərindən verilmiş şikayətlər üzrə həyata keçirir. CPM-in 122.1-ci maddəsinə görə, cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərdən və ya qərarlarından cinayət prosesinin iştirakçıları, habelə bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada cinayət prosesində iştirak edən digər şəxslər tərəfindən şikayət verilə bilər.

Cinayət işi başlanması haqqında qərardan da CPM-in 122.2.1-122.2.3-cü maddələrinə uyğun olaraq ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora (yuxarı prokurora) və ya məhkəmə nəzarətini həyata keçirən məhkəməyə şikayət verilə bilər. Belə olduğu təqdirdə, CPM-in 122.10-cu maddəsinin tələblərinə əsasən cinayət prosesini həyata keçirən orqan şikayətin dəlilləri üzrə əsaslandırılmış qərar qəbul edir və bu barədə şikayətçiyə yazılı məlumat verir.

Digər və fikrimizcə daha əsaslı olan mövqenin tərəfdarları isə hesab edir ki, cinayət işinin başlanması barədə qərar "deklarativ" xarakterli qərar olmaqla, məhkəməyədək icraatın ibtidai istintaq formasında həyata keçirilməsinin proses iştirakçılarına və digər şəxslərə elan edilməsidir. Başlanmış cinayət işi isə əsassız hesab edildiyi təqdirdə yalnız xitam edilə bilər. Bu fikir şikayət edilməsinə yol verilən qərarların siyahısına nəzər saldıqda da bir daha öz təsdiqini tapır.

Nəzərə alınmalıdır ki, məhkəməyədək araşdırma mərhələsində şikayət dedikdə cinayət barədə ərizə və müraciətlərin yoxlanması və həmçinin cinayət işlərinin istintaqı prosesində cinayət mühakimə icraatında iştirak edən şəxslərin prokuror, müstəntiq, təhqiqat orqanı (təhqiqatçı) tərəfindən həqiqətən pozulmuş və ya pozulması ehtimal edilən hüquq və qanuni mənafelərinin bərpa edilməsi barədə tələbi başa düşülür.

Prosesin məhkəməyədək mərhələsində icraatı aparan orqanların qərar və hərəkətlərindən şikayət verilməsi və bu şikayətlərə baxılması zamanı əmələ gələn münasibətlər öz hüquqi təbiətinə görə cinayət-prosessual xarakterlidir və şikayət etmə sahədaxili cinayət-prosessual normalarla tənzimlənir. Belə münasibətlərin əmələ gəlməsinə səbəb olan hüquqi fakt kimi, yalnız səlahiyyətli dövlət orqanlarının məhkəməyədək icraat zamanı prosessual hərəkət və ya qərarlarından verilən şikayət çıxış edir.

Məhkəməyədək cinayət-prosessual icraatda şikayətin predmetini maraqlı şəxslərin fikrincə təhqiqat, istintaq orqanlarının və ya prokurorun onların hüquqlarını pozan və ya təhlükə altına qoyan hərəkətsizliyi və ya qanunla nəzərdə tutulmuş prosessual vəzifələrin

icra olunmamasında ifadə olunan prosessual hərəkət və ya qərarlar təşkil edir.

CPM-in cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərindən və ya qərarlarından məhkəməyə şikayət verilməsi qaydalarını tənzimləyən 449.3-cü maddəsində nəzərdə tutulmuşdur ki, aşağıdakılarla bağlı cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərindən və ya qərarlarından məhkəməyə şikayət vermək hüququ mövcuddur:

– cinayət haqqında ərizənin qəbul edilməsindən imtina edilməsi;
– tutma və həbsdə saxlanılması;
– tutulmuş, həbs edilmiş və ya barəsində ev dustaqlığı qətimkan tədbiri seçilmiş şəxsin hüquqlarının pozulması;
– həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi;
– həbsdə saxlanılan şəxsə işgəncə verilməsi və ya digər amansız rəftar edilməsi;
– şəxsin cinayət prosesinin iştirakçısı qismində tanınmasının rədd edilməsi;
– şəxsin müdafiəsi üçün təhlükəsizlik tədbirlərinin görülməsi barədə vəsatətin və ya xahişin rədd edilməsi;
– ibtidai araşdırma orqanı tərəfindən qətimkan tədbirinin seçilməsi və ya dəyişdirilməsi;
– cinayət işinin başlanmasının rədd edilməsi, cinayət işi üzrə icraatın dayandırılması və ya ona xitam verilməsi;
– məhkəmənin qərarı olmadan istintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi;
– təqsirləndirilən (şübhəli) şəxsin müdafiəçisinin cinayət prosesindən kənarlaşdırılması.

“Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 449.2.3-cü maddəsinin şikayət vermək hüququ olan “digər şəxslər” müddəasının şərh edilməsinə dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 05.08.2009-cu il tarixli qərarına əsasən, qanunla nəzərdə tutulmuş məhkəmə nəzarəti qaydasında şikayət verilə bilən bu prosessual hərəkət və qərarların dairəsi qətidir və cinayət prosesini həyata keçirən orqanın digər prosessual hərəkət və qərarlarından şikayət verilməsi yol verilməzdir.

CPM-in köhnə redaksiyasında bu qərarların siyahısında həmçinin cinayət işinin başlanması barədə qərar da mövcud olmuşdur. Lakin, CPM-nə dəyişikliklər edilməsi haqqında 2 iyul 2001-ci il tarixli, 172-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə qeyd olunan qərar yuxarıda göstərilən siyahıdan çıxarılmışdır.

Bundan başqa, CPM-in cinayət təqibini istisna edən hallara dair 39-cu maddəsində də göstərilmişdir ki, CPM-in 39.1.1-39.1.12-ci maddələrində nəzərdə tutulmuş hallarda cinayət təqibi başlanıla bilməz, başlanmış cinayət təqibinə isə xitam verilməlidir (o cümlədən cinayət işi başlanıla bilməz, başlanmış cinayət işi üzrə icraata xitam verilməlidir).

Yəni, CPM-in qeyd olunan maddəsində sadalanan hallar cinayət təqibini başlama haqqında məsələ həll edilərkən daxil olmuş materialların yoxlanılması zamanı aşkar olunduqda cinayət təqibini başlamanın rədd edilməsinə, cinayət təqibi gedişində aşkar olunduqda isə cinayət təqibinə xitam verilməsinə səbəb ola bilər.

Həmçinin, CPM-in 41.1-ci maddəsinə əsasən təhqiqatçı, müstəntiq və ya prokuror cinayət təqibi üzrə icraatın məhkəməyədək hər hansı mərhələsində CPM-in 39-cu maddəsində göstərilən halları aşkar edərsə, cinayət təqibinə xitam verilməsi barədə (o cümlədən cinayət işi üzrə icraata xitam verilməsi barədə) qərar çıxarır.

Qeyd olunanlarla yanaşı, ilkin mövqenin tərəfdarlarının istinad etdiyi CPM-in 84-cü maddəsində də hazırki fikri dəstəkləyən müddəalar mövcuddur.

Belə ki, CPM-in 84-cü maddəsində ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təhqiqatçının və ya müstəntiqin qanunsuz və əsassız qərarlarını ləğv etmək hüququ nəzərdə tutulsa da, bu hüquq CPM-in 84.5-ci maddəsinə əsasən, cinayət işi üzrə aparılan təhqiqata və ibtidai istintaqa nəzarət edərkən həyata keçirilir. Yəni, qeyd olunan səlahiyyət cinayət işi başlandıqdan sonra qəbul edilmiş qərarlara münasibətdə tətbiq edilir.

Qeyd olunanlara əsasən, hesab edirik ki, cinayət işinin başlanması barədə qərarın əsassız olması qənaətinə gəldikdə CPM-in 84-cü maddəsinə əsasən, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror həmin cinayət işi üzrə icraata özü xitam verə bilər, yaxud o və ya yuxarı prokuror həmin cinayət işi üzrə icraata xitam verilməsinə dair icrası məcburi olan yazılı göstəriş verə bilər.

**Sabir Musayev,**
**Prokurorluqda istintaqa nəzarət idarəsinin böyük prokuror-metodisti**
**II dərəcəli hüquqşünas.**

**Rəşid Bayramov,**
**Prokurorluqda istintaqa nəzarət idarəsinin böyük prokuroru**
**kiçik ədliyyə müşaviri.**